# “Tarixinə sahib çıxmayanın torpağına göz dikən çox olar”

***Noyabrın 1-də dövlətimizin başçısı və birinci xanım Azərbaycanın tarixi əraziləri olan Şamaxı və İsmayıllı rayonlarına səfər etdilər. Səfər zamanı bir çox açılışda iştirak edən Prezident İlham Əliyev həm də Şamaxı rayonunda orta əsrlərə aid Pirsaat Baba ziyarətgahında, eləcə də İsmayıllı rayonunun Lahıc qəsəbəsində yerləşən tarixi Bədöyün məscidində aparılan bərpa-quruculuq işləri ilə tanış oldu. Qeyd edim ki, hər iki dini abidədə aparılan işlər Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi tapşırığı ilə yerinə yetirilmişdir. Bu sözləri bizimlə söhbətində görkəmli arxeoloq, tarix elmləri doktoru, Əməkdar jurnalist Qafar Cəbiyev bildirdi.***



***– Ümumiyyətlə, tarixi abidələrin bir xalq və ya dövlət üçün əhəmiyyəti nədir?***

– Köhnə tikililər, abidələr bizə dövrümüzdən əvvəl baş vermiş tarixi öyrədir və müxtəlif cəmiyyətlərdə yaşamış insanlarla bağlı təsəvvür yaradır. Memarlıq abidələri keçmişimiz və irsimizlə daha yaxından tanış olmağımıza kömək edir, tariximizlə bağlı qürur hissi yaradır, bizi dünyada bənzərsiz edir.

Memarlıqda yenilik, şübhəsiz ki, son dərəcə vacibdir. Lakin köhnə tikililərin qorunub saxlanılması və bərpası həm də ona görə lazımdır ki, o köhnə abidələr tariximizin əksidir, müxtəlif dövrlərdə müxtəlif adət ənənələrlə yaşamış əcdadımızı tanımağımıza yardım edir. Məlum olduğu kimi, Azərbaycan torpaqlarının 20 faizi bir qərinəyə yaxın müddət ərzində erməni işğalında qalmışdır. Heç kəs üçün sirr deyil ki, ermənilər ərazi iddialarını həm də uydurulmuş tarixi faktlarla əlaqələndirir, bununla torpaqlarımızı özününküləşdirməyə çalışırdı. Bu iddiaların əsassız və qondarma olduğunu yaxşı bilsək də, öz haqqımızı tarixi əsaslar və həqiqi faktlarla sübuta yetirmək, isbat etmək lazım idi. Belə olan halda öz tariximizi yaxşı bilməli, mədəni irsimizə sahib çıxmalıyıq.

***– Prezidentimiz, şüphəsiz, bu sahədə də nümunə göstərir.***

– Bəli, biz Prezident İlham Əliyevin dəfələrlə xarici simpoziumlarda, toplantılarda istər Azərbaycanın haqq işini, istərsə də xalqımızın qədim tarixini necə müdafiə etdiyini, doğru və yerində deyilən faktlarla ermənipərəst qüvvələri və konkret olaraq Ermənistan nümayəndələrini necə susdurduğunun şahidi olmuşuq. Əlbəttə, bu, xalq üçün ən gözəl örnəkdir. Təbii ki, cənab Prezidentin tariximizi qorumaq üçün gördüyü işlər bununla yekunlaşmır. Müharibədən sonra təkcə Azərbaycan xalqı yox, həm də bütün dünya ermənilərin Qarabağda – tarixi Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklərin şahidi oldu. Bu terrorun dünya ictimaiyyətinə çatdırılmasında da ölkə başçısının və onun təşəbbüsü ilə geniş vüsət alan informasiya təhlükəsizliyi ilə bağlı islahatların müstəsna rolu var. Ermənilər 30 il ərzində tarixi Azərbaycan torpaqlarında təkcə yaşayış binalarını deyil, həm də xalqımızın mədəni irsini də dağıtmağa, yox etməyə çalışmışlar. Məscidləri, heykəlləri, muzeyləri, qısası xalqımızın tarixini, mədəniyyətini, dini etiqadını əhatələyən hər şeyi, hətta qəbirləri belə... Ölkə başçısı çıxışları zamanı qətiyyətlə bildirirdi ki, biz bu torpaqlara həyatı yenidən qaytaracağıq. Dağıdılan abidələr bərpa ediləcək, yeni yaşayış binaları, məktəblər, xəstəxanalar tikiləcək, bir sözlə, insanların rahat yaşaması üçün hər cür şərait yaradılacaq.

***– Əlbəttə, respublikamızda tarixi irsimizin, mədəniyyətimizin qorunub saxlanılmasına, layiqli şəkildə işıqlandırılmasına dövlət səviyyəsində yüksək diqqət göstərilir. Siz bir tarixçi kimi bu barədə nə deyə bilərsiniz?***

– Təbii ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycanın tarixi sərvətinə, milli-mədəni dəyərlərinə xüsusi qayğısı hər bir azərbaycanlıya məlumdur. Bu sahədə görülən işlər saymaqla bitməz. Lakin bu layihələrin bir neçəsindən bəhs etmək yerinə düşərdi.

Ölkəmizin zəngin tarixə malik yaşayış yerlərindən biri olan İsmayıllı rayonunun Basqal qəsəbəsi də Prezident İlham Əliyev tərəfindən xüsusi qayğı göstərilən unikal yaşayış məskənlərindən biridir. Belə ki, burada Qoşabulaq, Dərəməhəllə, Dəmirçibaz və digər qədim məhəllələr, IX-XIX əsrlərə aid istehkamlar, məscidlər, su və kanalizasiya şəbəkələri, hamam, bulaqlar, mülklər xalqımızın mədəni irsinin dəyərli nümunələrindəndir.

Qeyd edək ki, Basqalda əhalinin əsas məşğul olduğu sahələr ipəkçilik və dəmirçilik olmuşdur. Bu ərazidə toxunan kəlağayılar XII-XIII əsrlərdə təkcə Qafqazda deyil, Şərq və Avropa ölkələrində də insanların diqqətini çəkmişdir.

Ötən əsrin 80-ci illərinin sonlarında isə “Basqal” Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılmışdır. Son illərdə həmin qoruğun inkişafı üçün bir çox tədbirlər həyata keçirilir. Burada həyata keçirilən ən önəmli icraatlardan biri də qəsəbənin qazla təmin olunmasıdır. Daha sonra Basqal çayı üzərində körpü tikilmişdir. Abadlıq işləri çərçivəsində qədim küçələr çay daşı ilə döşənmiş, bulaqlarda lazımi bərpa işləri aparılmışdır.

Respublika ərazisində tarixi abidələrə, ziyarətgahlara və mədəniyyət nümunələrinə göstərilən qayğıdan danışarkən Şamaxıda yerləşən Pir Ömər Sultan ziyarətgahını xüsusi qeyd etmək yerinə düşər. Keçən ilin may ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pir Ömər Sultan ziyarətgahında olarkən buradakı vəziyyətlə tanış olmuşdular.

Daha sonra Heydər Əliyev Fondunun təşəbbüsü ilə ziyarətgahda ən vacib bərpa işlərinin aparılması və həmin ərazinin arxeoparka çevrilməsi planlaşdırılmışdır.

Qeyd edim ki, Pir Ömər Sultan ziyarətgahının xəlvəti sufilik məktəbinin banisi olan Əbu Siracəddin Ömər Avaxılıya aid olub-olmamasını müəyyən etmək üçün tədqiqatlar aparılırdı. Burada aparılan araşdırmalardan sonra arxeoloqlar hesab edirlər ki, həmin ərazi xəlvətiliklə bağlı Azərbaycanda yerləşən ilk xanəgahdır.

Ziyarətgahın ətrafında – 133 kvadratmetr sahədə aparılan ilkin qazıntı-tədqiqat işlərindən sonra məlum oldu ki, XIV əsrin ortalarına aid türbə qalıqları həqiqətən də xəlvətilik təliminin banisi Pir Ömər Avaxılıya aiddir. Əlbəttə, ərazidən bunu təsdiqləyən artefaktlar aşkar olundu. Həmin türbə əsasən çay və qaya daşlarından tikilib. Türbənin ətrafında o dövrə aid olan pullar və dəfn olunmuş insan qalıqları tapılıb. Türbənin şərq tərəfində aşkar edilən iki qəbir üzrəindəki kitabə Pir Ömər ziyarətgahının məhz xəlvətilik sufi təliminin banisi Pir Ömər Avaxılıya aid olduğunu təsdiqləyən mühüm dəlil kimi qəbul edilir.

***– Sizin rəhbərliyinizlə 2010-cu ildə Ağsu arxeoloji ekspedisiyası başlamışdır. Əlbəttə, bu tədqiqata rəhbərlik etmiş, bir mütəxəssis kimi təəssüratlarınızı öyrənmək maraqlı olardı.***

– Məlum olduğu kimi, Ağsu XVIII əsrdə Azərbaycanda əhalinin sayına görə ən böyük şəhər olub. Həmin dövrdə Nadir şah Ağsunun yaxınlığında qala tikdirib ki, həmin qala divarları uzun müddət bölgədə çox əhəmiyyətli iqamətgah olub.

2010- cu ildə “Orta əsr Ağsu şəhəri” Arxeoloji Turizm Kompleksi layihəsi start götürdü. AMEA Arxeologiya və Etnoqtafiya İnstitutu və Milli Azərbaycan Tarix Muzeyinin birgə ekspedisiyası 1,5 hektar sahədə tədqiqatlar apararaq, təkcə Azərbaycan deyil, dünya tarixi üçün maraqlı tapıntılar üzə çıxarmışdır. Qazıntılar nəticəsində daş döşənmiş küçə və yollar, su və kanalizasiya xətləri, zibil çeşidləri üçün ayrıca quyular, sənətkarlıq emalatxanaları və s. aşkar edilmişdir. Daha əvvəlki əsrlərə aid olduğu müəyyən edilən tapıntılar isə onu deməyə əsas verir ki, burada hələ XII əsrdə yaşayış məskənləri olmuşdur.

Əlbəttə, istər Ağsuda, istərsə də respublikamızın digər ərazilərində arxeoloji qazıntılar hələ çox tarixi faktı, şəhərləri və yaşayış məntəqələrini aşkara çıxarmağımıza imkan verəcək. Respublikamızda bu sahəyə dövlət səviyyəsində göstərilən xüsusi diqqət və qayğı bizim işimizi asanlaşdırır, tədqiqatların daha yüksək səviyyədə, dünya standartlarına uyğun aparılmasına təkan verir.

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV, “Xalq qəzeti”***